# Ümummilli Liderin ideyaları Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır

**Adı çoxəsrlik tariximizə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin ümumiləşdirilmiş ifadəsi bugünkü Azərbaycandır. O Azərbaycan ki, davamlı uğurları, dünyaya nümunə olan inkişaf modeli, bütün nailiyyətlərinin zirvəsində dayanan tarixi Zəfəri ilə diqqətdədir. Hər bir uğur, tarixi hadisə, ölkəmizin həyatında önəmli rol oynayan dönüş anı keçilən yolun təhlilini bir zərurət kimi qarşıya qoyur.**



Bu il dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "Heydər Əliyev İli" elan edildi. Dahi şəxsiyyətin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edilməsində, misilsiz xidmətlərinin gənc nəslə çatdırılmasında əhəmiyyətli rol oynayan bu mühüm addım Ulu Öndərin ideyalarının hər zaman Azərbaycanın qarşısında mayak rolunu oynadığını təsdiqləyir. Ulu Öndər əməlləri, fəaliyyəti, xalqımıza, dövlətimizə bəxş etdiyi biri-birindən önəmli uğurlarla, ən əsası müstəqilliyimizi daimi və sarsılmaz etməklə əsl xilaskarlıq missiyasını nümayiş etdirmişdir. Azərbaycanın müasir tarixinin böyük bir dövrü Ümummilli Liderin möhtəşəm quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Hakimiyyətinin hər iki dövründə xalqa xidmət, Vətənə sədaqət ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsasında dayanıb. Dahi şəxsiyyətin milli dəyərlərimizə, milli düşüncə və ideologiyamıza əsaslanan siyasi kursu bu gün Azərbaycan dövlətinin dünya dövlətləri arasında öz layiqli yerini tutmasına gətirib çıxarmışdır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yer tutdu. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Ümummilli Lider xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və ölkəmizin inkişafı ilə bağlı ən düzgün qərarları verəcəkdir. Ulu Öndər Azərbaycanın malik olduğu enerji resurslarından səmərəli istifadəni təmin etmək üçün "Əsrin müqaviləsi"ninimzalanmasına nail olmaqla dövlətlər, xalqlar arasında əməkdaşlıq körpüsünü daha da möhkəmləndirdi. Azərbaycan təşəbbüsləri reallığa çevirən ölkə kimi nüfuz qazanır. Ümummilli Lider bildirmişdir: "Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir." Dahi şəxsiyyət atdığı hər addımında "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam" tezisinin reallığa söykəndiyini nümayiş etdirdi.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ulu Öndərin hüquqi, demokratik dövlət idarəçiliyinin yaradılması istiqamətində gördüyü işlər misilsizdir: "Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç yana əyə bilməsin, heç bir dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır."

Yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericilik bazasının yaradılması mühüm şərt idi. Ulu Öndər düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərcliyi və anarxiyanı aradan qaldırdı. Azərbaycan sabitlik diyarı kimi dünyanın diqqətində oldu. Bu mühüm məqam daim önə çəkilir ki, hər bir ölkə əməkdaşlığa maraqlı olduğu ölkədə demokratik inkişafa xüsusi diqqət yetirir. Azərbaycanın bu sahədə qazandığı uğurlar göz önündədir. Demokratiyanın vacib amilləri olan sabitlik və qanunun aliliyinin təmin edilməsi dövlətimizin siyasətində əhəmiyyətli rol oynayır. Azərbaycanda qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu. Ulu Öndər yeni Konstitusiya layihəsinin hazırlanmasını öz üzərinə götürdü və bununla bağlı xüsusi yaradılmış Komissiyaya rəhbərlik etdi. Konstitusiyamız 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ulu Öndər Heydər Əliyev bildirmişdir: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq".

**Sabitlik hər bir inkişafın əsası kimi öndə saxlanılır. Ulu Öndər bu çağırışı etmişdir ki, sabitlik olmadan hansısa sosial-iqtisadi layihənin həyata keçirilməsi mümkünsüzdür. Məhz Ulu Öndərin uğurlu siyasəti nəticəsində yenidən qurulan Azərbaycan qısa zamanda sabitlik diyarına çevrildi, ölkəmizə investisiya axını sürətləndi. Əvvəldə də qeyd etdiyimiz kimi, 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" bir daha Azərbaycanın nüfuzunun, beynəlxalq aləmdə möhkəmlənən yerinin və artan rolunun göstəricisidir. Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi siyasi mövqeyinin möhkəmlənməsində də öz sözünü dedi. Bu sazişin imzalanması ilə həm Azərbaycanın iqtisadi qüdrəti artdı, həm də etibarlı tərəfdaş kimi mövqeyi möhkəmləndi. Tarixən neft ölkəsi kimi tanınan Azərbaycan sonrakı illərdə qaz ixracatçısı kimi beynəlxalq aləmdə nüfuz qazandı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi Azərbaycanı regional inkişafın aparıcı qüvvəsinə çevirdi.**

"Əsrin müqaviləsi"nin imzalanmasından ötən zamana diqqət yetirsək ölkə iqtisadiyyatının böyük inkişaf yolu keçdiyini qürur hissi ilə qeyd edə bilərik. Ölkəmizin enerji sektorunda qazandığı uğurların miqyası ölçüyəgəlməzdir. Hər il keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bu sahədə görülən işlərin hesabatı kimi dəyərləndirilir.

Ölkəmizin iqtisadi qüdrətinin artması bütün sahələrdə, o cümlədən ordu quruculuğunda davamlı addımların atılmasını şərtləndirdi. Ölkəmizdə nizami ordu yaradıldı. Ümummilli Liderin ordu quruculuğuna diqqəti gənclərdə vətənpərvərlik hissinin artmasına, hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələrinə stimul oldu. Müstəqilliyimizin bərpasının ilk illərində digər sahələr kimi, ordu quruculuğunda da uğursuzluqlar hərbi xidmətdən yayınmalara, fərariliyin baş alıb getməsinə yol açmışdır. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra bu hallara son qoyuldu, qısa zamanda Azərbaycan torpaqlarını azad etməyə qadir ordu formalaşdı. Dahi şəxsiyyətin rəhbərliyi ilə hələ sovet dönəmində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlanıb. 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradılıb.

**1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanmasından sonra ordunun formalaşdırılması daha da sürətləndi. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.**

Bu mühüm məqamı xüsusi qeyd etməliyik ki, dahi şəxsiyyətin hakimiyyətinin birinci dövründə Azərbaycanın bu günü üçün möhkəm baza formalaşdırılmışdır. Belə ki, Azərbaycanda sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılıb, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılıb, əhalinin rifahı xeyli yüksəlib, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçib, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görülüb. Ümummilli Lider həmin mərhələdəki fəaliyyətini xatırlayarkən bildirmişdir: "O illər bizim respublika üçün çox uğurlu oldu. Bir çox vaxtlarda mən işimi qurtarandan sonra da evə getmir, saatlarla kabinetimdə əyləşib respublikanın gələcək inkişafı üçün daha hansı tədbirlərin görülməsinin vacibliyini düşünürdüm. İstəyirdim ki, vəzifəmin mənə verdiyi səlahiyyətlərdən istifadə edib, xalqın güzəranını bir qədər də yaxşılaşdırım."

Beləliklə, 1969-cu ildən əsası qoyulan yol, müəyyənləşdirilən siyasət Azərbaycana xidmət edir. Ümummilli Liderin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi 2020-ci ildə zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsinin ən önəmli səbəblərindən biri olmuşdur. Dahi şəxsiyyət 1969-1982-ci illər müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirmişdi. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli Liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər. Göründüyü kimi, XX əsrin 70-80-ci illərində Ulu Öndərin rəhbərliyi ilə təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdı. Keçdiyimiz qısa tarixi dövr sübut edir ki, Ümummilli Liderin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü tədbirlər Azərbaycanın bugünkü və gələcək problemlərinin həllinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin və xalqımızın tərəqqisinə yönəlmişdir.

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. 2003-cü ildə xalqa tarixi müraciətində inamın növbəti ünvanını göstərdi. Cənab İlham Əliyevə Özü qədər inandığını, axıra catdıra bilmədiyi işlərin Onun axıra çatdıracağına əminliyini ifadə etdi. Tarix dahi şəxsiyyətin uzaqgörənliyini bir daha təsdiqlədi. Ümummilli Liderin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpası idi. Azərbaycan cənab İlham Əliyevin 20 ilə yaxın Prezidentliyi dövründə 2003-2020-ci illərində torpaqlarımızın işğaldan azad edilməsi üçün hazırlıq dövrünü yaşadı. Bütün sahələrdə gücləndi, münaqişənin həlli üçün möhkəm hüquqi baza yaradıldı, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşdı. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz ölkəmizin malik olduğu imkanların dünyaya təqdimatı oldu. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində Azərbaycan xalqı 200 illik tarixini bərqərar etdi. Dövlət başçısı İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini böyük qürurla qeyd etdi.

**Keçilən yolun qısa təhlili bu ümumiləşdirməni aparmağa əsas verir ki, hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycanı daim zirvələrdə görmək istəyən Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və gələcəyə hesablanmış siyasəti, bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin inkişaf yolunu daim davamlı edəcək.**

**Çərkəz ƏLİYEVA,**
**Qaradağ rayon Heydər Əliyev Mərkəzinin direktoru**